# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar ümumtəhsil məktəb şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan xalqının dahi oğlu, qüdrətli dövlət xadimi və müdrik siyasətçi, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"-nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə Ulu öndərə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilsin.

**2.** Müsabiqə rayon (şəhər) və ölkə üzrə olmaqla 2 mərhələdə təşkil edilsin.

**3.** Müsabiqənin ilk mərhələsi 2016-cı ilin mart ayında rayon və şəhərlərdə, ölkə mərhələsi isə aprel ayında Bakı şəhərində keçirilsin.

**4.** Müsabiqənin ölkə mərhələsinin iştirakçıları üçün aşağıdakı qaydada kvota müəyyənləşdirilsin:

4.1. Bakı şəhərindən - 12 nəfər;

4.2. Gəncə şəhərindən - 3 nəfər;

4.3. Sumqayıt və Mingəçevir şəhərlərinin hər birindən - 2 nəfər;

4.4. digər şəhərlərdən və hər rayondan - 1 nəfər;

4.5. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrinin hər birindən - 1 nəfər.

**5.** Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrinin direktorları müsabiqənin ilk mərhələsini mütəşəkkil keçirmək üçün işçi qrupu və münsiflər heyəti yaratsınlar, müəyyən etdikləri meyarlar əsasında iştirakçıları qiymətləndirib qaliblərin adlı siyahısını (SAA, oxuduğu məktəb və sinif) martın 30-dək Təhsil Nazirliyinə göndərsinlər.

**6.** Müsabiqənin ölkə mərhələsi iştirakçılarının təqdimatlarının qiymətləndirilməsi meyarları və qiymətləndirməni aparan işçi qrupunun tərkibi təsdiq edilsin (1 və 2-ci əlavələr).

**7.** Müsabiqənin qalibləri diplom, tərifnamə və qiymətli hədiyyələrlə mükafatlandırılsın.

**8.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) müsabiqənin ölkə mərhələsinin nəticələri barədə əmr layihəsini müsabiqə başa çatdıqdan sonra 3 gün müddətinə hazırlayıb rəhbərliyə təqdim etsin.

**9.** Nəzərə alınsın ki, "Ən yaxşı təqdimat" müsabiqəsi Naxçıvan MR Təhsil Nazirliyi tərəfindən bu əmrdən irəli gələn tələblər əsas tutulmaqla müstəqil təşkil olunub yekunlaşdırılır.

**10.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin yekun tədbirinin keçirilməsi, qaliblərin mükafatlandırılması ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**11.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) müsabiqə ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**12.** Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.

**13.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavələri ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

**14.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*10 mart 2016-cı il*